İnsan hüquqlarının qorunması ümumbəşəri vəzifədir

Dekabrın 10-u hər il dünyada Ümumdünya İnsan Hüquqları Günü kimi qeyd edilir. Bu günün tarixçəsi insan hüquqlarının qorunması və inkişafı istiqamətində atılan mühüm addımları simvolizə edir.

1948-ci ildə İkinci Dünya müharibəsinin sonlarına yaxın dünya çox böyük bir böhranın astanasında idi. İnsanlar müharibənin yaratdığı dəhşətlərdən, genosidlərdən və böyük itkilərdən dərs alaraq bir daha belə faciənin təkrarlanmaması üçün hüquqi əsaslar yaratmaq istəyirdi. Bu məqsədlə 1948-ci ilin 10 dekabr tarixində BMT tərəfindən Ümumdünya İnsan Hüquqları Bəyannaməsi (Universal Declaration of Human Rights) qəbul edildi. Sənəd təxminən 30 maddədən ibarət idi və azadlıq, təhsil, iş, bərabərlik, ədalət kimi fundamental insan hüquqlarını tənzimləyirdi. Bəyannamə beynəlxalq insan hüquqları standartlarını müəyyənləşdirərək bu sahədə qanunvericilik islahatlarını sürətləndirdi. Elə bu səbəbdəndir ki, Ümumdünya İnsan Hüquqları Bəyannaməsi bu günə qədər dünyada insan hüquqlarının müdafiəsi sahəsində əsas prinsip və rəhbər sənəd olaraq qalmaqdadır.

Ümumdünya İnsan Hüquqları Gününün qeyd olunması insanların daha yaxşı, bərabər və ədalətli bir dünyada yaşamaq hüququna diqqət çəkir. İnsan hüquqları yalnız hüquqi və siyasi mövzu deyil, həm də insanın mənliyinin, ləyaqətinin və özünə hörmətin qorunması məsələsidir. İnsan hüquqları hər bir insanın doğulduğu andan etibarən malik olduğu, heç bir hökumət, təşkilat və ya şəxs tərəfindən əlindən alına bilməyən haqlardır. Bu, fərdi azadlıq və təhlükəsizlikdən tutmuş təhsil, səhiyyə kimi sosial, eləcə də digər iqtisadi haqlara qədər geniş sahəni əhatə edir. Ümumdünya İnsan Hüquqları Günü cəmiyyətlərə insan hüquqlarına riayət etməyin ümumi məsuliyyət olduğunu aşılayır. Bir çox ölkələrdə dekabrın 10-da insan hüquqlarının qorunması sahəsində daha çox irəliləyiş əldə etmək məqsədilə geniş müzakirələr, konfranslar, tədbirlər keçirilir. Bu gün həm də dünya xalqlarına birgəyaşayış və bərabərlik prinsiplərinə əsaslanan daha ədalətli, etibarlı gələcək qurmaq üçün çağırış edir.

Azərbaycan BMT-nin üzvü kimi Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin prinsiplərini qəbul edib. Azərbaycanın insan hüquqları sahəsindəki uğurları sözsüz ki, müstəqilliyini bərpa etdikdən sonrakı dövrə təsadüf edir. Həmin tarixdən etibarən ölkə demokratik prinsipləri, hüquqi dövlət quruculuğunu və vətəndaşların hüquqlarını müdafiə edən qanunvericilik islahatlarını həyata keçirməyə başlayıb. Məsələn, ölkədə ifadə azadlığının təmin olunması, seçki hüquqları, mətbuat azadlığı və digər hüquqlar üzrə mühüm dəyişikliklər edilib. Hazırda ölkəmiz insan haqlarının qorunmasına dair beynəlxalq hüquqi öhdəlikləri uğurla icra edir. Azərbaycanın Konstitusiyasında və digər qanunvericilik aktlarında da insan hüquqları mühüm yer tutur. Bu sənədlərdə hər bir fərdin şəxsi azadlıqları, təhsil hüququ, bərabərlik və sosial ədalət prinsipləri nəzərdə tutulur. Konstitusiyanın "Əsas insan və vətəndaş hüquqları və azadlıqları" adlı üçüncü fəsli insan hüquqlarını əhatə edən 48 maddəni özündə əks etdirir. Eyni zamanda Azərbaycan Respublikasında 1993-cü ildə ölüm hökmünün icrasına moratorium qoyulub, 1998-ci il fevral ayının 10-da isə bu hökm ləğv edilib.

Bir məqamı da xüsusilə vurğulamaq lazımdır. Keçmiş SSRİ məkanında ilk dəfə olaraq, Azərbaycanda Daxili İşlər Nazirliyinin tabeliyində olan ilkin həbs saxlama yerləri Ədliyyə Nazirliyinin tabeliyinə verilib. Digər tərəfdən, Azərbaycan Respublikası Prezidenti tərəfindən 1998-ci il fevralın 22-də "İnsan və vətəndaş hüquqları və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" Fərman imzalanıb. 1998-ci il 18 iyun tarixli sərəncamla insan hüquqlarının müdafiəsi sahəsində Dövlət Proqramı təsdiqlənib. Qeyd olunan Dövlət Proqramı əsasında 2002-ci ildə Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili, Ombudsman İnstitutu təsis edilib. Bundan əlavə, rəsmi Bakı qadın və uşaq hüquqlarının qorunmasına dair beynəlxalq müqavilələrə qoşulub, bu sahədə müxtəlif tədbirlər həyata keçirilməkdə davam edir. Ölkədə sosial bərabərliyi təmin etmək üçün mütəmadi olaraq yoxsulluqla mübarizə, təhsil və səhiyyə xidmətlərinin yaxşılaşdırılması sahəsində islahatlar icra olunur. Bununla yanaşı, Azərbaycan dövləti nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlıq edir, insan hüquqlarının təmin olunması məqsədilə müxtəlif konvensiyalara qoşulur. Məsələn, Azərbaycan Avropa Şurasının üzvüdür və Avropa İnsan Hüquqları Məhkəməsinin verdiyi qərarlara riayət etmək öhdəliyi daşıyır. Eyni zamanda ölkədə hər il Ümumdünya İnsan Hüquqları Gününə həsr olunmuş tədbirlər keçirilir, hüquq müdafiəçiləri, vətəndaş cəmiyyəti təşkilatları və dövlət orqanları bir araya gələrək mövcud vəziyyəti müzakirə edir, insan hüquqlarının təmin olunması sahəsində irəliləyişlər barədə fikir mübadiləsi aparırlar.

Jalə QASIMZADƏ,
"Respublika".

Respublika .- 2024.- 11 dekabr (№ 273).- S.11.